DOI: https://www.doi.org/10.36719/2663-4619/65/257-260

**Səbinə Rizvan qızı Abdullayeva**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
sebine_abdullayeva_2015.mail.ru

# İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRDƏ VERGİ YIĞIMININ EFFEKTİV QURULMASI

***Açar sözlər:*** *vergi, vergi yığımı, vergi auditi, qanunvericilik, cərimə, vergidən yayınma, vergi sistemi, dövlət siyasəti*

**Establishing the effective tax collection in the developing countries**
**Summary**

İn the contemporary condition one of the main the way which leads to the social and economical development is the correctly organized tax system. For this reason tax which is the main profit center for the government should be checked by the tax audit in order to provide budget for state. Specially during the last years modern organized and integrated world practice which brings new technology to the system is observed in the developing countries. Development of the economy is directly depend on the correct and timely collection of the tax payments. Lacks in the tax legislation, tax collection and tax audit which was indicated in the article are affecting to the economy of the developing countries. Government should give strong efford to eloborate the barriers and work attentively for this challenge.
***Key words:*** *tax, tax collection, tax audit, tax legislation, fine, tax sistem, government policy*

## Giriş

Bu məqalə bəzi ölkələrin vergi qanunlarına nə dərəcədə əməl etdiklərinin təcrübəsini şərh edir və xüsusi ilə də vergi yayınması yüksək dərəcədə olan ölkələrin vergi sistemini inkişaf etdirmək üçün ümumi qaydalar təklif edir. Vergi qanunvericiliyinin məqsədlərindən biri vergi ödənməsini vaxtında və tez bir şəkildə həyata keçirməkdir. Vergidən yayınma üçün cərimələr təyin etmək və ya vergi ödəyicisinin hüquq pozuntusu vergi qanunvericiliyinin meqsədlərinə aid deyil.

## Effektiv qurulan vergi qanunvericiliyi

Könüllü şəkildə vergi qanunvericiliyinə riayət etmək vergi ödəyiciləri arasında ruhlandırıla bilər.Əgər qanunvericilik vergiyə riayət etməməyin müəyyən olunması və düzgün şəkildə cərimələnməsi üçün effektiv yol tapsa könüllü vergiyə riayət etməni stimullaşdıra bilər. Effektiv qurulan vergi qanunvericiliyi səmərəli vergi qanunvericiliyi ilə qarışdırımamalıdır. (11.s, 26) Vergi yığımının xərci aşağı olduğu təqdirdə vergi idarə edilməsi effektiv hesab oluna bilir. Effektiv idarə etmənin məqsədi yalnız könüllü vergiyə əməl etmək dərəcəsi deyil, əsas faktor yüksək dərəcədə vergidən yayınmanın aradan qaldırılması və müvafiq həll yolu tapılmasıdır.

## Dövlət və onun siyasətinə inam

Müxtəlif səbəblər vergidən yayınmaya gətirib çıxara bilər, onlardan biri də cəmiyyətin qurumların dövlət və onun iqtisadi siyasətinə nə dərəcədə dəstək olmağıdır. Deyə bilərik ki, vergi ödəyicilərinin dövlət və onun siyasətini qəbul etmə müstəqilliyinin verilməsi vergiya əməl etməyə gətirib çıxara bilər. Bəzi təcrübədə müşahidə etdiyimiz ölkələr var. Vergi ödəyicilərini vergi ödəməyə ruhlandıran amillərdən biri də onların dövlət və onun siyasətinə inanmağıdır. İnanmaq dedikdə sahibkar olan bir şəxs özünün müəssisəsində olan maliyyə çətinlikləri ilə bağlı dövlətdən dəstək ala biləcək, o təqdirdə ki, bu şəxs gələcəkdə gəlir əldə edə bilmə ehtimalını müvafiq hesablamalar və təxminlərlə sübüt edə biləcək. Bu halda əgər sahibkar gəlir əldə etməyə nail olsa, bu həm də dövlət üçün gəlirli olacaq, çünki həmin şəxs vergi ödəyərək dövlətin gəlirini artırmış olacaq. Bəzi aşağıda sadalanan təcrübədə olan misalları bu məqaləyə əlavə edə bilərik. (6.s, 22) 1970-ci illərdə Çilidə hərbi hökümətin az xalq dəstəyi olduğundan bu ölkədə həmin vaxt könüllü vergiyə əməl etmək aşağı səviyyədə idi. Lakin bunun əksi olaraq, Argentina ictimayyətə tam olaraq dəstək göstərsə belə 1980-1990-cı illərdə ən aşağı dərəcəli vergi qanunverciliyinə əməl etmə müşayət edilmişdir. Həmin vaxtlarda Boliviyada demokratik hökumətin dəyişməsi vergi idarə edilməsində inkişafa gətirib çıxarmışdı. Şübhəsiz ki, vergi idarə edilməsinin effektiv təşkili vergiyə əməl olunma ilə müəyyən olunmur. Burada makroiqtisadi dəyişikliklərə daxil olan faiz dərəcələri və inflasiyanı vergi yığımında olan mənfi təsirlər kimi misal göstərmək olar.

## Vergi idarə edilməsində çatışmazlıqlar

Qanunverciliyin və prosedurların sadəliyi vergi idare edilməsində vergi ödəyicilərinə göstərilən xidmətin keyfiyyəti vergi yığımı proseduruna təsir edir. İnkişaf etməkdə olan bir çox ölkələrdə yüksək dərəcəli vergidən yayınma halı olduqda vergi idarəsi effektiv şəkildə müvafiq cərimələr müəyyən edərək vergi ödəyicisinin hərəkətlərini formalaşdıra bilər. (5.s, 40) Neticə olaraq aşağıdakı çatışmazlıqlar aradan qaldırılarsa effektiv vergi idarə edilməsinə nail olmaq olar:

1. **Qeydiyyatdan keçməmiş vergi ödəyiciləri.** Birinci çatışmazlıq potensial vergi ödeyiciləri və qeydiyyatdan keçmiş vergi ödəyiciləri arasında fərq yaradır.
2. **Dayanan vergi ödəyicisi.** İkinci çatışmazlıq qeydiyyatdan keçmiş vergi ödəyiciləri və ödənilən məbləğ arasındakı fərqi əks etdirir.
3. **Vergidən yayınma.** Üçüncü çatışmazlıq vergi ödəyicisinin hesabladığı və potensial vergi məcəlləsinə uyğun hazırlanmış vergi məbləği.
4. **Vergi ödəyicisinin hüquq pozuntusu.** Dördüncü və ən son çatışmazlıq vergi ödəyicisinin borclu olduğu məbləğ və vergi orqanları tərəfindən hesablanıb müəyyən edilmiş ödənilən məbləğ.

Vergi yığımı prosesini inkişaf etdirmək üçün vergi orqanları effektiv hərəkət edib bu çatışmazlıqları aradan qaldırmalıdır. Yuxurıda sadalanan çatışmazlıqların hər birini aradan qaldırmaq üçün obyektiv məlumatlar seçilməlidir. Qeydiyyatdan keçməmiş vergi ödəyicisini müəyyən etməyin ilkin şərti kimi vergi ödəyicisinin vahid reyestri olması əsas şərtlərdən hesab olunur. Vergi ödəyicisinin vahid reyestri vergi ödəyicisinin eyniləşdirmə nömrəsi və bununla bağlı məlumatlardan ibarət olur. Vergi ödəyicisinin eyniləşdirmə nömrəsinə ad, soyad, kommersiya biznes adı, ünvan, biznes fəaliyyəti və vergi ödəyicisinin ödəyəcəyi verginin növü kimi məlumatlar daxildir.

İqtisadi baxımdan nəzar yetirsək, gəlirləri az olan ölkələrin Ümum Daxili Məhsulunda vergi gelirlərinin payı 10-20% təşkil etdiyi halda inkişaf etmiş ölkələrdə bu təxmini 40% təçkil edir. Bu inkişaf etməkdə olan ölkələrin fundamental xarakterlərindən yəni aşağı dərəcəli inkişaf etmiş bank sistemi və ya yayılmış olan qeyri-qanuni işçi və bazar münasibətindən qaynaqlana bilər. İnkişaf etmiş ölkələr gəlir yığımı zamanı xeyli məhdudiyyələr ilə rastlaşırlar. İnkişaf etməkdə olan ölkələri vergi yığımı zamanı geri qoyan səbəblərə iki əsas problemi qeyd etmək olar. (8.s, 31) Bunlar inkişaf etmiş informasiya və telekominikasiya sistemlərinə və avadanlıqlarına beynəlxalq səviyyəli qeydiyyatlarının olmaması və bu sahədə işləyə biləcək təcrübəli mütəxəsislərin çatışmazlığıdır. Misal olaraq inkişaf etməkdə olan ölkələrdən olan Uqanda dövlət gəlirlərinin yığılmasında yığım idarəetmə və toplanmış məlumat informasiya sistemində böyük çətinliklərlə üzləşir. Başqa bir problem kimi iqtisadiyyatın nağd pul sistemi ilə işləməsidir və bu da öz növbəsində əməliyyatların düzgün nəzarət edilməsində maneələr yaradır. Qabiliyyətli işcilərin olamağı inkişaf etməkdə olan ölkələrin onları düzgün şəkildə dəyərləndirə bilməsindən aslıdır. Əks təqdirdə beyin axını baş verir və ölkə qabilliyyətli təcrübəli işçilərin azlığı problemi ilə üz-üzə qalır.

## Vergi yığımında olan maneələr

Beynəlxalq şirkətlər və xarici investorların inkişaf etməkdə olan ölkələrdə fəaliyyəti vergi yığımı prosesinə təsir edən xarici siyasi faktor hesab olunur. Ölkələrdə yerli şirkətlərin yaxşı fəaliyyət göstərməməsi xarici şirkətlərlə işləmək üçün səbəb yaradır və bu da öz növbəsində vergidən gələn gəlirlərdə ciddi azalma ilə özünü biruzə verir. Vergi yığımında olan maneləri aşağıdakı kimi sadalaya bilərik:

1. **İkitərəfli vergi münasibətləri və dövlətin beynəlxalq şirkətlərə qarşı hüququnu itirməsi**
2. **Beynelxalq ticarətdə vergidən yayınma**
3. **Xarci investorlar üçün vergidən azad olamalar və vergi güzəştlərinin tətbiqi**

İkitərəfli vergi münasibətləri inkişaf etmiş ölkələrin gəlirlərinin azalmasına səbəb olan faktorlardan hesab olunur . Bəs ikitərəfli vergi münasibətləri nə demekdir və məqsəd nədir? Ölkələr beynelxalq şirkətlərlə ikitərəfli müqavilə imzalayırlar və bunun nəticəsində və bu şirkətlər həmin ölkələrin sərhədləri daxilində fəaliyyət göstərməyə başlayırlar. Bəs bunun inkişaf etmiş faydası nədir? Bu ölkələrin iqtisadiyyatları zəif olduğundan vergi gəlirlərində azalma olamasına baxmayaraq onlar bu sazişə daxil olurlar. (9.s, 12)

## Vergi auditində olan maneələr

Vergitutma proseduru inkişaf etmiş ölkələrdə inkişaf etməkdə olan ölkələrdə praktikada fərqli həyata keçirilir. Ona görə inkişaf etmiş ölkələrdə vergi araşdırması kontekstləşdirmə tələb edir. İki region arasında olan ən böyük fərqlərdən biri praktiki vergi auditidir. İnkişaf etmiş ölkələrdə vergi auditi ehtimalı vergidən yayınmadan çəkindirmə rolunu oynayır lakin bu inkişaf etmiş ölkələrdə belə deyil. Bu tədqiqatda müəyyən olunur ki inkişaf etməkdə olan ölkələrdə vergi audti üç ölçülü prosedurdan ibarətdir audit ehtimalı müəyyən etmə və sanksiya. Bu elmi tədqiqata görə bu sadalanan üç prosedur fərqlidir lakin ayrılmazdır və vergi auditi prosedurunun effektiv

həyata keçirilməsi üçün birlikdə işlənməlidir. Məsələn audit prosedurundan sonra aşkarlanma həyata keçirilməlidir. Əks halda bütün prosedur qeyri-effektiv olacaq. Vergi auditi nəticəsində hər hansı vergidən yayınma halı aşkarlandıqdan sonra müvafiq olaraq vergi qanunvericiliyinə uyğun şəkildə sanksiya tətbiq olunur. Sanksiya tətbiq olunmamış aşkarlanma bütün proseduru qeyri-effektiv göstərməyə səbəb olur. İnkişaf etməkdə olan ölkələrdə audit vergidən yayınma halı aşkarlanmadan həyata keçirilir ya da aşkarlanan halda sanksiya tətbiq olunmur. Çünki vergidən yayınanlar kompromisə girərək rüşvət və korrupsiya ilə bütün qurulmuş sistemi dağıdırlar. Vergi auditi sistemində iştirak edən vergi orqanları nümayəndələri dünyanın bir çox inkişaf etmiş ölkələrində yüksək təcrübə əldə etmiş bacarıqlı mütəxəsislərdir. Onlar mütamadi normal olaraq indivualların şirkətlərin və başqa vergi ödəyicilərinin vergi öhətliklərinə düzgün əməl etnələrini yoxlayan zaman maliyyə göstəricilərini əməliyatlarını və qeydlərini əsas götürürlər Lakin vergi orqanlarının nümayəndələri vergi auditi zamanı aşkar edilən tipik rüşvət və karrupsiya hallarının göstəricilərindən xəbərsiz ola bilərlər. Vergi orqanları nümayəndələri öz şübhələrinə əsasən aşkar etdiyi rüşvət və karrupsiya hallarına uyğun vergi qanunverciliyinə müraciət edirlər. Vergi orqanları nümayəndələri ölkənin vergi qanunvericiliyinə dövlət siyasətinə və prosedurlara yaxşı bələd olmalı və rüşvət və vergidən yayınma halları ilə üzləşdiyi zaman öz təcrübə və biliklərini yaxşı nümayiş etdirməyi bacarmalıdır. Rüşvət və karrupsiya hallarını gizlətmək üçün vergi ödəyiciləri eyni üsullardan istifadə edirlər onlardan biri də gəlirlərini gizlərmək. Vergi nümayəndələrinin sorğu zamanı istənilən araşdırma real olaraq vergi ödəyicisinin vergi öhtəliklərini düzgün müəyyən etməkdir. Şübhələrə əsasən toplanılan dəlillər nəticəsində cinayət işinin açılması vergi nümayəndələrinin yox hüquq mühafizə orqanlarının vəzifəsi hesab olunur. Rüşvət də daxil olmaqla karrupsiya əməliyyatları vergi auditi zamanı şirkətin və ya şəxsin maliyyə hesablarında aşkarlana bilər və ya başqa şübhələrə əsasən müəyyən oluna bilər. Çox zaman vergi orqanları nümayəndələri vergi auditi zamanı karrupsiya hallarının göstəricilərini vergi ödəyicisinin kitabda olan maliyyə hesabatlarına baxış zamanı müəyyən edirlər. Ümumi olaraq şirkətin maliyyə hesabatlarını yoxlamaq vergi orqanlarının nümayəndələri üçün əlavə olaraq iş hesab olunmur və normal fəaliyyətindən biridir. Maliyyə hesabatlarına əsasən yoxlanış zamanı vergi ödəyicisinin gəlirlərini müəyyən etmək və bu gəlirlərə əsasən gəlir vergisini, vergiyə cəlb olunan və olunmayan xərclərin dəqiqliyini yoxlamaq vergi auditi procedurunun mütamadi etdiyi fəaliyyətdir. Vergidən yayınma hallarını müəyyən etmək üçün vergi auditini həyata keçirən şəxslər eyni analitik bacarıqlardan treyninqlərdən istifadə etməli və nəticə olaraq öz mühakimələrinə əsasən vergidən yayınma halını müəyyən etməlidir. Vergi auditini həyata keçirən vergi orqanları nümayəndələrini və auditorları karrupsiya hallarının müəyyən olunmasında dəstək olamq üçün vergi idarələri 3 pilləyə əsaslanan riskə əsaslanan yanaşma qəbul edirlər. Bəhs etdiyimiz 3 pillə aşağıdakılardan ibarətdir

1. Zəka
2. Şüur
3. Təlim

Planlama audit nümayəndələri üçün vacib mərhələ hesab olunur və burada onlar dəqiq düzgün məlumatı haansı mənbədən əldə edə bilərlər deyə düşünürlər. Daxili audit və media hesabatları internet infarmasiya əldə olunmasında dəyərli mənbə hesab olunur. (10. s, 11) Bazar qiymətləri üçün faktlara əsasən yığılmış məlumatlar vergi ödəyicisinin pozisiyasini biznes normaları ilə müqayisə etməkdə yardımçı olardınız. Lazımlı və müvafik məlumatların yığılması üçün vergi auditini yoxlanış planında aşağıdakı meyarlar nəzərə alınmalıdır:

1. Əgər hansısa bir istinad gizlədilmiş korporativ məbləğə gətirib çıxarırsa bu zaman daxili audit hesabatları və ona uyğun sənədlər yenidən yoxlanışa götürülür.
2. Başqa tənzimləyici dövlət orqanları tərəfindən doldurulan hesabatların sürətiə baxış olmalıdır.
3. Xarici müəssisələr ilə fəaliyyət müqavilələr qiymət razılaşmaları transfer olunmuş məbləğin detalları nəzərə alınır.
4. Daxili və başqa açıq mənbələrə baxış olmalıdır.

## Nəticə və təkliflər

Müasir şəraitində sosial-iqtisadi inkişafa nail olmağın əsas yollarından biri də düzgün qurulmuş vergi sistemidir. Məhz buna görə də dövlətin əsas gəlir mənbəyi olan vergi düzgün şəkildə yığılmalı və vergi orqanları nümayəndələri tərəfindən audit olunmalıdır. Xüsusən də son dövrlərdə düzgün, müasir təşkil olunmuş, daha çox yeni texnologiya ilə birlikdə inkişaf etmiş ölkələrdən götürülmüş praktikaya əsaslanan vergi auditi vergi ödəyicilərinin və vergi orqanları nümayəndələrinin işini rahatlaşdırmışdır. Bunun başlıca səbəbi ölkənin qlobal iqtisadi sistemə inteqrasiyanın güclənməsi ilə bağlıdır. İqtisadiyyatın normal inkişafı vergi yığımı prosesinin düzgün və vaxtında həyata keçirilməsindən çox aslıdır. Məqalədə sadaladığımız vergi idaredilməsində, vergi yığımında, vergi auditində olan çatışmazlıqlar hamısı bir başa inkişaf etməkdə olan ölkələrin iqtisadi inkişafına bir başa təsir edir. Dövlət bu məqsədlə əlindən gələni edib hər bir çatışmazlıq üzərində diqqətlə çalışıb aradan qaldırmağa nail olmalıdır.

## References

1. Linnea Mills- Barriers to increasing the tax revenue in developing countries -2017
2. Richard Bird-8 İmproving Tax Complience-1992
3. Timothy Besley -Why do developing countries tax so little ? –2014
4. Niu Yongzhi (2010)- Tax audit impact on voluntary compliance
5. Nyakamba Daniel Mirera (2011)- The effects of tax audit on revenue collection-case of Kenya Revenue Authority
6. Jean Bosco Harelimana- The effects of tax audit on revenue collection in Rwanda
7. The dynamic effects of tax audits- William Elming
8. Tax evation and inquality (2017)- Gabriel Zucman
9. Progressive wealth taxation (2019)- Emmanuel Saez
10. Audit quality research report (2013)- Jimmy Bing
11. Audit reporting for going-concern uncertainty (2013)- Elizabeth Carson

**Rəyçi: dos. M.Həsənov**

Göndərilib: 16.04.2021 Qəbul edilib: 17.04.2021